UOT 330.322.14

# KƏND TƏSƏRRÜFATI İSTEHSALININ KREDİTLƏŞDİRİLMƏSİ XÜSUSİYYƏTLƏRİ

[1,3]**Rahil Cabbar oğlu Muradov,** [2,3]**Firuzə Aftandil qızı Məmmədova**
[1]rahil.muradov@adau.edu.az
[2]doktorant
firuza.mammadova@adau.edu.az
[3]Azərbaycan Dövlət Aqrar Universiteti

***Xülasə:*** *Aqrar sahənin inkişafı, maddi-texniki təminat sferası ilə maddi ehtiyatların istehlakı arasında əlaqələrdən əhəmiyyətli dərəcədə asılıdır. Bu baxımdan, kənd təsərrüfatı müəssisələrinin istehsal fəaliyyətinin təşkili, istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi zəruri maddi-texnikki resurslarla sistemli və hərtərəfli təmin olunmanı tələb edir. Məqalədə bu məsələlər araşdırılmaqla aqrar sahənin inkişafında maddi-texnikki resursların rolu, onların əldə edilməsi ilə bağlı güzəştlərin əhəmiyyəti vurğulanır, statistik məlumatlar əsasında istehsal və istehlak arasında tarazlığın təmin edilməsi imkanları müəyyənləşdirilir.*

*Bu tədqiqat göstərir ki, kənd yerlərində kənd təsərrüfatı müəssisələrinin maddi-texniki təchizatının təşkili müxtəlif mülkiyyət və idarəetmə strukturlarına malik istehsalçıların texnoloji tələbatlarının müəyyən edilməsinə, o cümlədən iqtisadiyyatı və kənd təsərrüfatını maddi-texniki resurslarla təmin etmək üçün kənd təsərrüfatı xidməti göstərən strukturların yaradılmasına yönəldilib.*

*Kənd təsərrüfatı müəssisələrinin maddi-texniki təchizat sistemi maddi-texniki ehtiyatlara olan tələbat əsasında səmərəli fəaliyyət göstərə bilər. İstehsal strukturlarının, ticarət və vasitəçi təşkilatların maddi-texniki təchizat sistemlərində bazar iqtisadiyyatı şəraitində maddi-texniki təchizatın əsas formaları aşağıdakılardır: tranzit - birbaşa əlaqələrə əsaslanan; tələb və təklif vasitəsilə kənd təsərrüfatı mübadiləsi - anbar obyektləri ilə pulsuz şərtlərlə; lizinq şərtləri ilə malların tədarükü; kənd təsərrüfatı mübadiləsi və s.*

***Açar sözlər:*** *maddi-texniki təminat, intensiv texnologiya, aqroservis, tələb, lizinq*

## Giriş

Kənd təsərrüfatı istehsalının mövsümiliyi, dövriyyə vəsaitlərinin qeyri-bərabər hərəkəti bir çox hallarda, bu sahədə fəaliyyət göstərən müəssisələrin dövriyyə vəsaitlərinin çatışmazlığına səbəb olur. Ona görə də kənd təsərrüfatı müəssisələri kredit resurslarına ehtiyac duyurlar. İqtisadiyyatın hər bir sahəsi kimi kənd təsərrüfatı istehsalının kreditləşdirilməsinin xüsusiyyətləri kredit şərtləri şəklində ifadə olunur. Kənd təsərrüfatı istehsalının sahədaxili xüsusiyyətləri ilə müəyyən edilən və kredit xidmətlərinin xüsusiyyətlərini müəyyən edən şərtlər olaraq aşağıdakıları qeyd etmək olar: yüksək kapital tutumu və nisbətən aşağı məhsuldarlıq, xərclər və gəlirlərin yaranması ilə bağlı dövrlər arasında vaxt uyğunsuzluğu, texnoloji dövrün müddəti və istehsalın mövsümiliyi, istehsal prosesinin fasiləsizliyi və kənd təsərrüfatına xas olan, özünü təkrar istehsal prosesi, istehsala qoyulan dövriyyə vəsaitlərinin uzunmüddətli hərəkəti, təbii-iqlim şəraiti, bitki və heyvanların bioloji xüsusiyyətləri, istehsalın təbii ehtiyatlarla sıx əlaqəsi və s. Bu xüsusiyyətlər iqtisadiyyatın digər sahələri ilə müqayisədə kənd təsərrüfatının kreditləşməsinin üçün daha az əlverişli mövqeyini müəyyən edir. Kənd təsərrüfatı müəssisələri arasında kredit münasibətlərinin inkişafına kreditdən istifadəyə görə yüksək faiz dərəcələri, torpaqlardan girov kimi istifadəsinə imkan verən qanunvericilik aktlarının kifayət  səviyyədə olmaması, istehsalçılara kifayət qədər dövlət dəstəyinin göstərilməməsi kimi məsələlər mane olur. Bu baxımdan aqrar sahədə kredit münasibətlərinin təkmilləşdirilməsi aktuallığını qorumaqdadır.

**Kənd təsərrüfatının kreditləşdirilməsinə dövlət dəstəyi**

Kənd təsərrüfatının kreditləşdirilməsi iqtisadiyyatın bu mühüm sahəsinin borc vəsaitlərinə tələbatını qarşılamağı nəzərdə tutur. Qeyd edildiyi kimi, kənd təsərrüfatı istehsalının təbii-iqlim

şəraitindən, mövsümilikdən və digər amillərdən asılılığını müəyyən edən obyektiv xüsusiyyətlərinin kreditləşmədə nəzərə alınması vacib məsələlərdən hesab edilir.

Kənd təsərrüfatı istehsalının yerləşməsi ilə əlaqədar olaraq iqtisadi differensiallaşmanın şərtləri də kreditlərdən istifadədə nəzərə alınması vacib olan məqamlardandır. İstehsalın bu sferasında iqtisadi fəaliyyətlə məşğul olan subyektlərin təkrar istehsalı həyata keçirmək imkanlarının formalaşmasında kredit resursları xüsusi əhəmiyyət kəsb edir. Ümumiyyətlə, kənd təsərrüfatının kreditləşdirilməsi sistemi spesifik sahədir ki, onun fəaliyyət göstərməsi məhsul istehsalının, bölgüsünün, mübadiləsinin və istehlakının müxtəlif mərhələlərində pul vəsaitlərinin kənd təsərrüfatı istehsalçılarının ehtiyaclarına uyğun olaraq yenidən bölüşdürülməsini təmin edir. Bu baxımdan "kredit risklərinin operativ və dolğun qiymətləndirilməsini, eləcə də iqtisadi subyektlərin maliyyə intizamının gücləndirilməsini təşviq etmək" [1] zəruridir. Subyektlərin maliyyə intizamının təmin edilməsi və kreditlərin əldə olunması dövlət dəstəyi ilə əlaqəlidir.

Kənd təsərrüfatının kreditləşdirilməsinə dövlət dəstəyinin əsas istiqamətlərinə aşağıdakılar daxildir:

- aqrar sahənin dəstəklənməsi üzrə ixtisaslaşmış inkişaf institutlarının nizamnamə kapitalının artırılması;
- kənd təsərrüfatı kreditlərini faiz dərəcəsinin subsidiyalaşdırılması;
- kreditləşmədə davamlılığın təmin edilməsi və s.

Belə tədbirlərin həyata keçirilməsi çərçivəsində banklardan və kredit təşkilatlarından alınan qısamüddətli borc vəsaitlərinə çıxışın təmin edilməsi aşağıdakı istiqamətləri nəzərdə tutulur:

- kredit müqavilələri üzrə kreditləşmə;
- mövsümi işlərin aparılması üçün kredit resurslarından istifadə;
- təşkilati-hüquqi formasından asılı olmayaraq subyektlər üçün kənd təsərrüfatı xammalının alınmasına görə kreditlər;
- kənd təsərrüfatı məhsulları istehsalçıları üçün investisiya kreditləri və s. [Гатаулина, 2011].

Məlumdur ki, bankların və kredit təşkilatlarının fəaliyyətində ən mühüm istiqamətlərdən biri kənd təsərrüfatı məhsulları istehsalçılarına cari məqsədlər üçün kreditlərin verilməsidir. Bu baxımdan son illər kənd təsərrüfatına yönəldilən kreditlərin dinamikasında artım müşahidə edilir. Belə ki, son 5 ilin statistikası göstərir ki, 2018-ci illə müqayisədə 2022-ci ildə bu sahəyə yönəldilən kreditlər 38,8 % artmışdır. Müqayisə olunan dövrdə ticarət və xidmət sahələrinin iqtisadiyyat kredit qoyuluşlarındakı xüsusi çəkisində isə azalma müşahidə edilir – 1,9 bənd. Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sektoru üzrə də oxşar vəziyyət baş vermişdir. Nəqliyyat və rabitə sahələrində isə 2018-ci illə müqayisədə 2022-ci ildə həm kredit qoyuluşlarının məbləği, həm də xüsusi çəkisi aşağı düşmüşdür. Sənaye və istehsal sektorunda müqayisənin aparıldığı dövrdə kredit qoyuluşlarının həcmi 49,9 % artmış, ümumi kredit qoyuluşlarında bu sahənin payı 0,1 bənd azalmışdır (cədvəl 1).

**Cədvəl 1**

**Kredit qoyuluşlarının sahələr üzrə strukturu**

| Sahələr | 2018 | | 2019 | | 2020 | | 2021 | | 2022 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Mln. man | % | Mln. man | % | Mln. man | % | mln. man | % | mln. man | % |
| Ticarət və xidmət sektoru | 2379,5 | 18,3 | 2491,3 | 16,3 | 2606,8 | 17,9 | 2992,5 | 17,5 | 3303,0 | 16,4 |
| Mədənçıxarma və elektrik enerjisi, qaz, buxar və su təsərrüfatı sektoru | 419,2 | 3,2 | 619,4 | 4 | 524,5 | 3,6 | 749 | 4,4 | 649,9 | 3,2 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sektoru | 470 | 3,6 | 543,4 | 3,6 | 566,2 | 3,9 | 591,7 | 3,5 | 629,1 | 3,1 |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| İnşaat və tikinti sektoru | 388,8 | 3 | 477,1 | 3,1 | 493 | 3,4 | 903,2 | 5,3 | 1097,4 | 5,4 |
| Sənaye və istehsal sektoru | 706,6 | 5,4 | 872,6 | 5,7 | 1250,1 | 8,6 | 971,7 | 5,7 | 1059,8 | 5,3 |
| Nəqliyyat və rabitə sektoru | 1370,7 | 10,5 | 1204,3 | 7,9 | 848,5 | 5,8 | 737,3 | 4,3 | 792,7 | 3,9 |
| Ev təsərrüfatları | 5319,6 | 40,9 | 6978,7 | 45,6 | 6709,3 | 46,2 | 8607,3 | 50,3 | 11273,1 | 3,9 |

*Cədvəl DSK-nın məlumatları əsasında tərtib edilmişdir* [10]

Kənd təsərrüfatında kredit qoyuluşlarının dinamikasına nəzər saldıqda məlum olur ki, 2018-ci illə müqayisədə növbəti illərdə əhəmiyyətli artım baş vermişdir. Belə ki, kredit qoyuluşlarında 2018-ci ilə nisbətən 2019-cu ildə 15,6 %, 2020-ci ildə 20,5 %, 2021-ci ildə 25,9 %, 2022-ci ildə 33,9 % artım qeydə alınmışdır (şək. 1).




**Şək. 1.** Kənd təsərrüfatında kredit qoyuluşlarının dinamikası, əvvəlki ilə nisbətən, % ilə
(*Qrafik DSK-nın məlumatları əsasında hazırlanmışdır* [10])

Araşdırmalar göstərir ki, kredit təşkilatları kənd təsərrüfatı məhsulları istehsalçılarının kredit qabiliyyətinin səviyyəsini və kreditin girovla təminat dərəcəsini qiymətləndirməkdə maraqlıdır. Bunlar əslində kənd təsərrüfatı müəssisələrinin kredit resurslarına əlçatanlığına müsbət təsir edən şərtlərdir. Kənd təsərrüfatı istehsalının kreditləşməyə bilavasitə təsir edən xüsusiyyətlərini iki böyük qrupa bölmək olar:

- kənd təsərrüfatının fəaliyyət göstərdiyi sosial-iqtisadi şəraitdən asılı olmayan sahəvi xüsusiyyətlər;
- bütövlükdə iqtisadiyyatın vəziyyətindən şərtlənən bazar şəraiti.

Məlumdur ki, kənd təsərrüfatı, digər sahələrdən fərqli olaraq, daha çox özünün təkrar istehsal prosesi ilə xarakterizə olunur. İstehsal edilən kənd təsərrüfatı məhsullarının hamısı satılmır və onların bir hissəsi müəssisələrdə saxlanılmaqla dövriyyə vəsaitlərini [məsələn, süd, toxum, yem] təmin etmək üçün istifadə olunur. Nəticədə məhsul satışından əldə edilən gəlirdə azalma baş verə bilir [Коляда, 2015]. Ona görə də bu amil kreditlərin həcminə təsir edir. Kənd təsərrüfatı istehsalçılarının sərəncamında olan girov [torpaq və əkin sahələri] da spesifikdir. Torpaq əsas istehsal vasitəsi kimi girov rolunda çıxış edərək istehsalçılara investisiya layihələrinin həyata keçirilməsi (uzunmüddətli kreditlərin verilməsi) üçün zəruri maliyyə resurslarını cəlb etməyə imkan verir. Banklar tərəfindən qısamüddətli kreditlər verilərkən aqrar sahədə fəaliyyət göstərən təşkilatların istehsal-təsərrüfat fəaliyyətinin əsas nəticəsi olan heyvandarlıq və bitkiçilik məhsullarından girov kimi istifadə edilməsi də məqsədəuyğun hesab edilir.

**Kənd təsərrüfatının kreditləşdirilməsində maliyyə riskləri**

Araşdırmalar göstərir ki, kənd təsərrüfatında müxtəlif risk ehtimalının yüksək olması təminat və faiz dərəcəsi baxımından kreditləşmə şərtlərinin sərtləşməsinə gətirib çıxarır. Kənd təsərrüfatı istehsalı təbii-iqlim şəraiti, bitki və heyvanların bioloji xüsusiyyətləri, təbii ehtiyatlarla bağlıdır. Bu amillərin əlverişsiz istiqamətə dəyişməsi məhsuldarlığa, ümumi məhsulun həcminə mənfi təsir göstərir. Məhsulların aşağı rentabelliyi, satışı ilə bağlı çətinliklər, bir çox kənd təsərrüfatı müəssisələrinin qeyri-sabit maliyyə vəziyyəti, elmi-texniki tərəqqinin nailiyyətlərindən zəif istifadə kənd təsərrüfatını yüksək riskli sahə kimi səciyyələndirir. Kreditləşmə zamanı banklar bu amillər xüsusi diqqət yetirir. Xüsusilə bankların rəqəmsallaşması şəraitində qeyd edilənlər daha da aktuallıq kəsb edir [Чайкина, 2018]. Kənd təsərrüfatına xas olan yüksək riskləri minimuma endirmək məqsədi ilə kredit təşkilatları istehsalçılara verilmiş kreditlərin qaytarılmasını təmin edən tədbir kimi girovun sığortasını həyata keçirməkdə də maraqlıdır. Kənd təsərrüfatı sığortası bu sahəni banklar üçün daha cəlbedici edir, çünki bu, kreditləşmə prosesi zamanı yaranan maliyyə risklərini azaltmağa imkan verir.

Beləliklə, istehsalçılara kredit verilməsinin xüsusiyyətləri kənd təsərrüfatının sahədaxili xüsusiyyətləri ilə müəyyən edilir və kredit xidmətlərinin təşkilinin xüsusiyyətlərini müəyyənləşdirir. Kənd təsərrüfatı müəssisələrinin kreditləşdirilməsi digər sahələrinin kreditləşdirilməsi ilə eyni mərhələləri əhatə edir, lakin bu proses bir sıra xüsusiyyətləri ilə səciyyələnir: bank üçün yüksək risk xarakteri; aşağı faiz dərəcələri və müvafiq olaraq aşağı rentabellik; girovun təmin edilməsi öhdəliyi və onun sığortalanması zərurəti; faiz dərəcələrinin subsidiyalaşdırılması şəklində dövlət dəstəyinin göstərilməsi və s.

Araşdırmalar göstərir ki, kənd təsərrüfatı istehsalçılarının maliyyə dayanıqlığının əldə edilməsində kənd təsərrüfatı kredit kooperativləri xüsusi rol oynayır. Maliyyə dayanıqlığının təmin edilməsində maliyyə resurslarından istifadə səviyyəsinin qiymətləndirilməsinə ehtiyac var [Akdoğan, Tenker, 2003]. Məlumdur ki, kredit kooperasiyası kənd təsərrüfatının böhrandan çıxması, kənd təsərrüfatı istehsalının sabitləşməsi və artırılması, əhalinin keyfiyyətli və ucuz ərzaq məhsulları ilə təminatının yaxşılaşdırılması üçün real ilkin şərtlər və şərait yaradır. Kənd təsərrüfatı istehsalçılarının kreditləşməsinin inkişaf perspektivləri kənd təsərrüfatı kooperativlərinin və kredit kooperasiyası prinsipləri əsasında fəaliyyət göstərən digər bankların yaradılması və fəaliyyəti ilə bağlıdır. Bu, kreditlərin dəyərini azaltmağa və məqsədli kredit resurslarının qeyri-kənd təsərrüfatı sektorlarına istiqamətlənməsinin qarşısını almağa, bank sektorunda rəqabət mühitinin yaradılmasına kömək edir.

Kənd təsərrüfatına xas olan yüksək kapital tutumu və aktivlərin nisbətən aşağı rentabelliyi, xərclər və gəlirlərin yaranması dövrləri arasındakı vaxt uyğunsuzluğu kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olan subyektlər üçün banklar tərəfindən kredit dəstəyinin konkret formalarına ehtiyacı diktə edir. Beynəlxalq təcrübədə torpaq ipoteka kreditləşməsi sisteminin inkişafının prioriteti ondan ibarətdir ki, kənd təsərrüfatına yararlı torpaqlar kənd təsərrüfatında istehsalın əsas şərti və əsasıdır, ona görə torpaq kredit üçün girov kimi çıxış edə bilər. Kənd təsərrüfatı torpaqlarının girov qoyulması mexanizminin səmərəliliyi kənd təsərrüfatına uzunmüddətli investisiyaların cəlb edilməsinə və kənd təsərrüfatı subyektlərinin iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına kömək edir.

Maliyyə bazarında kredit resurslarının investorlardan ipoteka kreditləşməsi üzrə ixtisaslaşmış borcalanlara ötürülməsini təmin edən bir-biri ilə əlaqəli maliyyə institutlarının yaradılması zəruri məsələlərdəndir [Климович, 2018]. Maliyyə institutlarının əsas vəzifəsi kredit-zəmanət əməliyyatlarını həyata keçirmək, kadastr dəyərini bazar dəyərinə qədər aşan kredit üçün müraciət edərkən əlavə təminatlar verməkdir. Kredit torpaq sistemlərinin formalaşmasında dövlətin rolu, onun torpaq ipoteka banklarının formalaşmasında, kredit resurslarının yaradılmasında, güzəştli kreditlərin verilməsində fəal iştirakı mühümdür. Mürəkkəb ipoteka əməliyyatları dövlət tərəfindən ciddi nəzarət və tənzimləmə tələb edir. Ona görə də torpaq ipoteka kreditləşməsinə şərait yaradılması kənd təsərrüfatının kreditləşdirilməsi sahəsində dövlət siyasətinin əsas məqamı hesab edilir.

İpoteka prosesinin bütün iştirakçılarının maraqlarını nəzərə alan və torpaq ipotekası funksiyasının tam şəkildə həyata keçirilməsinə imkan verən torpaq bazarının hüquqi tənzimlənməsi də əsas məslələrdən biridir. Həmçinin kənd təsərrüfatı kredit kooperasiyasının inkişafı kiçik təsərrüfatların maliyyə dəstəyinin mühüm istiqamətlərindəndəndir. Ümumi şəkildə maliyyə dəstəyi büdcə siyasətinin tərkib hissəsi hesab edilir [Кудрин, Кнобель, 2017]. Kənd təsərrüfatı kredit kooperasiyası kommersiya banklarına müqavimət göstərmək imkanı yaradır, kənd təsərrüfatı sahələrinin maliyyə vəziyyətini gücləndirir, kənd əhalisinin maliyyə xidmətlərinə daha geniş çıxışını təmin edir. Kənd kredit kooperasiyası sisteminin daha da inkişaf etdirilməsi zərurətini maliyyə resurslarına ehtiyacı olan müxtəlif kateqoriyalı təsərrüfatların sayı ilə izah etmək olar. Buna görə də kreditlərin ölçüsü, onların müddəti istehsalçının imkanları nəzərə alınmaqla və maraqlarını qorumaqla müxtəlif istiqamətlərdə formalaşır. Bu istiqamətlərin inkişafı üçün dövlət dəstəyinin göstərilməsi zərurəti də əsas şərtdir. Kredit kooperasiyası kənd təsərrüfatı istehsalçılarının həyat səviyyəsini artırmaqla maliyyə resurslarına tələbatı ödəyə bilər.

Beləliklə, kredit əməkdaşlığının inkişafı aşağıdakı məsələlərin həllinə imkan verə bilər:

- kənd təsərrüfatı istehsalçılarının sərbəst vəsaitlərinin istehsal-təsərrüfat fəaliyyətinə cəlb edilməsi;
- kredit resurslarına tələbatın bazardakından daha sərfəli şərtlərlə ödənilməsinin təmin edilməsi;
- maliyyə bazarında rəqabət mühitinin yaradılması;
- kənddə sosial-iqtisadi problemlərin həllində iştirak.

Kənd təsərrüfatının kreditləşməsinin inkişaf istiqamətlərindən biri də kənd təsərrüfatının dövlət zəmanətlərindən istifadə etməklə kommersiya bankları tərəfindən kreditləşdirilməsinin mümkünlüyüdür. Bu yanaşmanın tətbiqi kənd təsərrüfatında maliyyə resurslarına daha geniş çıxışını təmin etməyə xidmət edir. Kreditlərə zəmanət verən dövlət, kommersiya banklarının verdiyi kreditlərin həcminin müəyyən nisbətində ixtisaslaşdırılmış fondda vəsait ehtiyatı saxlaya bilər [Bəşirov, 2016]. Avadanlıqların alınması və sonradan kənd təsərrüfatı təşkilatlarına verilməsi üçün tələb olunan kreditin bir hissəsinə dövlət zəmanəti verilə bilər. Zəmanət fondları lizinq şirkətlərinin kreditorlarına onlara lizinq ödənişlərinin qaytarılmasına təminat, habelə maliyyələşdirmə üçün verilmiş kreditlərin qaytarılmasına təminat verən sığortaçı kimi də çıxış edə bilər [Дворецкая, 2020]. Buna görə də büdcə vəsaitlərindən yalnız investisiya layihələrinin maliyyələşdirilməsi üçün deyil, həm də daha böyük həcmdə vəsaitlərin cəlb edilməsinə imkan verən zəmanət fondlarının formalaşdırılması üçün istifadə etmək zəruridir.

Kommersiya bankları tərəfindən kənd təsərrüfatının kreditləşdirilməsinin təkmilləşdirilməsi məqsədilə aşağıdakı istiqamətləri məqsədəuyğun hesab etmək olar:

- mövsümi istehsal ehtiyacları üçün kənd təsərrüfatının güzəştli kreditləşməsinin inkişafı;
- kənd təsərrüfatına birbaşa kreditlərin verilməsi üçün məqsədli fondların yaradılması və dəstəklənməsi;
- əmlak təminatı ilə güzəştli kreditləşmənin inkişafı;
- kredit kooperativlərinin inkişafı, torpaq banklarının yaradılması və dəstəklənməsi və s.

Kredit sisteminin təkmilləşdirilməsi subyektlərin maliyyə cəhətdən sağlamlaşdırılması, həmçinin istehsalın müasirləşdirilməsi proqramlarının işlənib hazırlanması və həyata keçirilməsi yolu ilə dəstəklənə bilər. Bu, kənd təsərrüfatının kreditləşdirilməsi sisteminin tənzimlənməsində və dəstəklənməsində dövlətin rolunu gücləndirilməsinin vacibliyini təsdiq edir. Dövlətin iştirakı ilə banklarla kənd təsərrüfatı istehsalçıları arasında kredit münasibətlərinin inkişafını nəzərdə tutan kreditləşməsi sistemini yaradılması mümkündür.

**Nəticə**

Qeyd olunanlardan belə bir nəticəyə gəlmək olar ki, kənd təsərrüfatı məhsulları istehsalçılarının maddi-texniki bazası onların tələbatlarına uyğunlaşdırılmalıdır. Odur ki, maddi-texniki bazanın rəqabətqabiliyyətliliyi məsələsi də önə çəkilməlidir. Bu baxımdan kənd təsərrüfatı maşınları bazarının formalaşması və inkişafı prosesində dövlət tənzimləmə tədbirləri mühüm əhəmiyyət kəsb edir. Tənzimləmə tədbirlərinə aşağıdakılar daxildir: maddi-texniki məhsulların

satışı ilə məşğul olan diler xidmətlərinə, avadanlıqlarının kommersiya lizinqinə, habelə lizinq şirkətlərinə güzəştlərin verilməsi; müxtəlif mal qrupları üçün gəlirlərin fərqləndirilməsi və xidmətlərin keyfiyyətinin qiymətlər vasitəsilə əks olunması; resursdan istifadənin səmərəliliyini və müvafiq resurslara qənaəti yüksəltməyə yönəlmiş fəaliyyətlərin stimullaşdırılması; kənd təsərrüfatı texnikasının təkrar emalı proqramının tətbiqi və xarici və ya yerli yeni texnikanın alınmasına güzəştlərin əldə edilməsi, maddi-texniki resurslara əlçatanlığın artırılması və köhnəlmiş avadanlıqların əhəmiyyətli bir hissəsinin yenilənməsi; kənd təsərrüfatı müəssisələri üçün dövlət subsidiyalarının genişləndirilməsi və məhsul istehsalçıları tərəfindən texnikanın alınmasına güzəştlərin verilməsi mexanizminə yenidən baxılması və s.

Beləliklə, göstərilənlərə əsasən qeyd etmək olar ki, texniki təminat sistemi kənd təsərrüfatı texnikasının təşkili və istismara verilməsi üzrə tədbirlər kompleksi olub, texniki qulluğun təşkili, aqrar sahənin infrastruktur elementlərinin inkişafı, avadanlıqların təmiri, texniki xidməti üzrə tədbirlərin təşkili və həyata keçirilməsi, kənd təsərrüfatı texnikası, əmlak və istehlak materialları ilə təchizatın reallaşdırıması, kənd təsərrüfatı texnikasının və avadanlıqlarının bərpasının təşkili, mütəxəssislərin hazırlanmasının təşkili və onların ixtisaslarının artırılması, iqtisadi cəhətdən məqsədəuyğun olmayan kənd təsərrüfatı texnikasının, aqreqatların və avadanlıqların yeniləri ilə əvəzlənməsi, texniki dəstək sisteminin inkişaf etdirilməsi kimi mühüm tədbirləri əhatə edir. Bütün bunlar nəticə etibarilə, istehsalın səmərəliliyinin yüksəldilməsinə istiqamətlənməklə bütövlükdə aqrar sahənin inkişafına yönəlir.

## İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı.
2. Bəşirov, 2016 Bank işi [dərslik]. Bakı, "MBM", 392 s.
3. Гатаулина, 2011. Кредитование сельского хозяйства: современные вызовы и пути их решения // Экономические науки. № 3. С. 315-318.
4. Дворецкая, 2020. Деньги, кредит, банки. М.: Юрайт. 473 с.
5. Климович, 2018. Финансы, денежное обращение и кредит: учеб. / В. П. Климович. – 3-е изд., перераб. и доп. – М.: ИД «ФОРУМ»: ИНФРА-М, 456 с.
6. Коляда, 2015. Государственное финансирование сельского хозяйства как показатель социально ориентированной рыночной экономики // Вестник Алтайского государственного аграрного университета. № 7 [129]. С. 186-190.
7. Кудрин, Кнобель, 2017. Бюджетная политика как источник экономического роста // Вопросы экономики. № 10. С. 5- 26.
8. Чайкина, 2018. Цифровая экономика: новые возможности для банков // Экономика и управление: теория и практика. Т. 4. № 4-1. С. 43–49.
9. Akdoğan, Tenker, 2003. Finansal Tablolar ve Mali Analiz Teknikleri, Gazi Kitapevi, Ankara, s.606-656.
10. www.stat.gov.az

## FEATURES OF AGRICULTURAL PRODUCTION LOAN

**[1,2]R.Muradov, [2]F.Mammadova**
[1]PhD student
[2]Azerbaijan State Agrarian University

***Abstract:*** *The development of the agricultural sector largely depends on the relationship between the sphere of material and technical support and the consumption of material resources. From this point of view, organizing the production activities of agricultural enterprises and increasing the economic efficiency of production requires a systematic and comprehensive provision of the necessary material and technical resources. Having considered these issues, the*

*article emphasizes the role of material and technical resources in the development of the agricultural sector, the importance of concessions associated with their acquisition, and, based on statistical data, determines the possibilities of ensuring a balance between production and consumption.*

*This study shows that the organization of logistics for agricultural enterprises in rural areas is aimed at determining the technological needs of commodity producers with different ownership and management structures, including the creation of agricultural service structures to provide the economy and agriculture with material and technical resources.*

*The logistics system for agricultural enterprises can function effectively based on the need for material and technical resources. In the systems of material and technical supply of production structures, trade and intermediary organizations, the main forms of material and technical supply in a market economy are: transit - based on direct connections; exchange of agricultural products through supply and demand - on free terms with storage facilities; supply of goods on leasing terms; agricultural exchange, etc.*

***Keywords**: logistics, intensive technology, agricultural service, demand, leasing*

## ОСОБЕННОСТИ КРЕДИТА СЕЛЬСКОХОЗЯЙСТВЕННОГО ПРОИЗВОДСТВА

**[1,2]Р.Дж.Мурадов, [2]Ф.АМамедова**
[1]докторант
[2]Азербайджанский государственный аграрный университет

***Резюме:** Развитие аграрного сектора в значительной степени зависит от соотношения сферы материально-технического обеспечения и потребления материальных ресурсов. С этой точки зрения организация производственной деятельности сельскохозяйственных предприятий, повышение экономической эффективности производства требует систематического и комплексного обеспечения необходимыми материально-техническими ресурсами. Рассмотрев эти вопросы, в статье подчеркивается роль материально-технических ресурсов в развитии аграрного сектора, значение концессий, связанных с их приобретением, а также на основе статистических данных определяются возможности обеспечения баланса между производством и потреблением.*

*В данном исследовании показано, что организация материально-технического снабжения сельскохозяйственных предприятий в сельской местности направлена на определение технологических потребностей товаропроизводителей с различной структурой собственности и управления, в том числе на создание структур сельскохозяйственного обслуживания для обеспечения экономики и сельского хозяйства материально-техническими ресурсами.*

*Система материально-технического снабжения сельскохозяйственных предприятий может функционировать эффективно исходя из потребности в материально-технических ресурсах. В системах материально-технического снабжения производственных структур, торгово-посреднических организаций основными формами материально-технического снабжения в условиях рыночной экономики являются: транзит - на основе прямых связей; обмен сельскохозяйственной продукцией через спрос и предложение - на свободных условиях с хранилищами; поставка товаров на условиях лизинга; сельскохозяйственная биржа и т.д.*

***Ключевые слова**: логистика, интенсивная технология, агросервис, спрос, лизинг*

**Elmi redaktor: i.e.d., prof. V.Əyyubov**
**Çapa təqdim edən redaktor: i.f.d., dos. N.Qədimli**
**Daxil olub: 07.09.2024**
**Çapa qəbul edilib: 22.09.2024**